*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
**ISSN: 2148-2292**
**10 (1) 2023**
https://doi.org/ 10.46868/atdd.2023.




***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received :20.07.2023***
***Kabul tarihi |Accepted: 25.07.2023***
***Yayın tarihi |Published : 25.08.2023***



**Mehriban Tağıyeva**

https://orcid.org/0009-0006-8328-2446
*Doctor of philosophy in history, associate professor. Azerbaijan University of Technology, head teacher of the Department of Social Sciences and Multiculturalism, Azerbaijan, tagiyevamehriban@mail.ru*

***Atıf Künyesi | Citation Info***
Tağıyeva, M. (2023). XIX Əsrin Tarixi Məsələləri Heydər Əliyev İrsində. *Akademik Tarih ve Düşünce Dergisi*, *Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 348-355.

# XIX Əsrin Tarixi Məsələləri Heydər Əliyev İrsində

***Xülasə***

*Tarixi şəxsiyyət konkret məkan və zaman daxilində yaşadığından onun fəaliyyətinə də məhz həmin baxımdan yanaşmaq lazım gəlir. Ancaq zamandan böyük olan, xalqının bir neçə on və bəzən də yüz illiklər inkişaf yolunu öncədən görərək müəyyənləşdirən, ömrünü xalqının tərəqqisinə, dövlətinin qüdrətlənməsinə həsr edənlər dahilər olur. Azərbaycan xalqının tarixində isə əvəzolunmaz iz buraxan böyük şəxsiyyət, siyasi xadim Heydər Əliyevdir. Məqalədə Heydər Əliyev fəaliyyətinə diqqət yetirilmiş, bir sıra suallara məntiqi cavab vermək, yeni tariximizi doğru bilmək, qiymətləndirmək və nəticələr çıxarmaq üçün araşdırma aparılmışdır. İti təfəkkürə, möhkəm məntiqə, fenomenal yaddaşa, geniş və zəngin dünyagörüşünə malik, ixtisasca tarixçi olduğundan, şübhəsiz, tarix elmini və onun problemlərini digər elmlərdən daha yaxşı və daha dərindən bilən Heydər Əliyevin XIX əsrdə baş*

*vermiş tarixi hadisələrə münasibəti öyrənilmişdir. Məqalədə XIX yüzillik Azərbaycan tarixinin ən gərgin və təlatümlü dövrü kimi xarakterizə edilir. Qafqazın Rusiya imperiyası tərəfindən işğalından sonra buraya çarizmin xeyir-duası ilə kütləvi şəkildə xristian əhalinin köçünün başlanması, köçürülənlərin böyük əksəriyyətinin ermənilər olması, onların Cənubi Qafqaza könüllü köçməsi erməni kilsəsinin əsrlər boyu gizli həyata keçirdiyi planlarının tərkib hissəsi olduğu qeyd edilir. Cənubi Qafqazda erməni kilsəsinin qarşılaşdığı ən böyük əngəllərdən biri alban xalqının mənəvi qürur mənbəyi olan Alban kilsəsi olmuşdur. XIX yüzilliyin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqaza hücumu və şərq istiqamətində iştahasının artması Alban kilsəsinin Eçmiədzinə güzəştə getməsinə səbəb oldu. Alban kilsəsinin əmlakı və tarixi irsi Eçmiədzin kilsəsinin sərəncamına verildi. Beləliklə, Alban kilsəsi Cənubi Qafqaza hücum edən müsəlman hökmdarları tərəfindən deyil, XIX yüzilliyin əvvəllərində xristian dövləti tərəfindən ləğv edildi. Məqalədə qeyd olunur ki, Heydər Əliyev XX əsrin tarixi proseslərini XIX əsrin proseslərinin davamı kimi dəyərləndirmişdir.*

***Açar sözlər:** Azərbaycan tarixi, Heydər Əliyev, işğal, köçürmə siyasəti, soyqırım, neft*

## Historical Issues of the 19th Century in the Legacy of Heydar Aliyev

***Abstract***

*Since a historical figure lives within a specific space and time, it is necessary to approach his activity from that point of view. However, there are geniuses who are greater than time, who foresee the path of development of their people for several decades and sometimes hundreds of years, dedicate their lives to the progress of their people and the strengthening of their state. Heydar Aliyev is a great personality and political figure who left an irreplaceable mark in the history of the Azerbaijani people. The article paid attention to Heydar Aliyev's activities, research was conducted in order to logically answer a number of questions, to know our new history correctly, to evaluate it and to draw conclusions. The attitude of Heydar Aliyev to the historical events of the 19th century has been studied. The article describes the 19th century as the most intense and turbulent period in the history of Azerbaijan. After the invasion of the Caucasus by the Russian Empire, the mass migration of the Christian population began here with the blessing of the tsarism, the vast majority of the displaced were Armenians, and their voluntary migration to the South Caucasus is a part of the plans secretly carried out by the Armenian Church for centuries. One of the biggest obstacles faced by the Armenian Church in the South Caucasus was the Albanian Church, which is the source of spiritual pride of the Albanian people. At the beginning of the 19th century, the attack of the Russian Empire on the South Caucasus and the increase of its appetite in the eastern direction caused the Albanian Church to compromise with Etchmiadzin. The property and historical heritage of the Albanian Church was placed at the disposal of the Church of Etchmiadzin. Thus, the Albanian Church was abolished not by the Muslim rulers who attacked the South Caucasus, but by the Christian state at the beginning of the*

*19th century. It is noted in the article that Heydar Aliyev evaluated the historical processes of the 20th century as a continuation of the processes of the 19th century.*

***Keywords:*** *history of Azerbaijan, Heydar Aliyev, occupation, resettlement policy, genocide, oil*

**Giriş**

Tarix yalnız dahi şəxsiyyətlərin əvəzsiz əməlləri sayəsində nəsillərin yaddaşına həkk olur. Belə şəxsiyyətlər yaşayıb yaratdıqları zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazırlar. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Qədim tarixi olan Azərbaycan xalqı dünya tarixinə İranzu, Tomris, Atropat, Urnayr, Cavanşır, Babək, Məhəmməd Cahan Pəhləvan,Cəmaləddin Qara Yusif Barani, Uzun Həsən, Şah İsmayıl Xətai, I Şah Abbas, Oruc bəy Bayat, Nadir şah Əfşar, Cavad xan Ziyadoğlu Qacar, Səttar xan kimi qüdrətli şəxsiyyətlər bəxş etmişdir. Xalqımız XX yüzillikdə daha bir dahi şəxsiyyət yetişdirdi. Dünyanın Mustafa Kamal Atatürk, Cəvahirləl Hehru, Vudro Vilson, Şarl de Qoll kimi nadir tarixi simaları arasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin qurucusu, xalqının və ölkəsinin müstəqilliyi naminə böyük və əvəzedilməz işlər görmüş, dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır.

Azərbaycan tarixinin yeni dövrü işğallar, müstəmləkəçilik, dövlətçilik ənənələrini məhvetmə siyasəti, milli və dini təqiblərlə başlamışdır. XIX əsrin əvvəllərində Araz çayı sərhəd olmaqla, Azərbaycan torpaqları Rusiya və İran arasında bölüşdürülmüş, Azərbaycanın şimal əraziləri çar Rusiyasının, cənub əraziləri isə İranın müstəmləkəsinə çevrilmişdir. 1813-cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsi Azərbaycan tarixinin ən ağrı-açılı səhifələri idi. Heydər Əliyev 4 mart 2000-ci il tarixində ABŞ Hərbi kollecinin nümayəndələri ilə görüşdə bu haqda demişdir: “Bilirsiniz, Cənubi Qafqaz bir neçə əsr Rusiya imperiyasının tərkibində olub. Məsələn, Azərbaycanı götürsəniz, XIX əsrin əvvəllərində ilk dəfə Rusiya-İran müharibəsi olubdur, bu müharibələr nəticəsində Azərbaycan parçalanıbdır. Azərbaycanın şimal hissəsi, yəni bizim yaşadığımız Azərbaycan rus imperatorluğunun tərkibinə keçibdir, Azərbaycanın cənub hissəsi İranın tərkibində qalıbdır. Gülüstan müqaviləsi, Türkmənçay müqaviləsi ilə - bu iki müqavilə ilə Azərbaycan iki yerə bölünübdür: yüz il rus imperatorluğunun, 70 il də Sovet imperiyasının tərkibində qalıbdır. Amma fərqi yoxdur, bu da yenə Rusiyanın hakimiyyəti idi.” (http://www.anl.az/heliyev/he_me.htm). Türkmənçay müqaviləsinə fərqli şəkildə baxılır. Bir qrup Türkmənçay müqaviləsini Azərbaycan türklərinin parçalanması kimi qiymətləndirir. Digərləri bununla yanaşı azərbaycanlıların yüz illər yaşadıqları torpaqlardan zorla ayrıldıqlarını da göstərirlər. İranla

müqavilə imzalanan kimi Rusiya ermənilərі İrəvan xanlığı ərazisinə köçürməyə başladı. Ermənilərin İrandan və Türkiyədən Azərbaycanın şimal torpaqlarına köçürülmələri onlara yeni vətən yaradılması idisə, Azərbaycan türklərinin min illərlə yaşadıqları torpaqlardan zorla çıxarılması idi. Ümummilli Lider Heydər Əliyev bu hadisələri müvafiq fərmanında aşağıdakı şəkildə dəyərləndirmişdi: "Qısa bir müddətdə bu siyasət gercəkləşdiriləcək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi." (https://e-qanun.az/). Dünya xalqlarının tarixində köç çox müxtəlif rollar oynamışdır. Heç təsadüfü deyil ki, ən qədim zamanlardan başlayaraq müxtəlif coğrafiyalar arasında köç vasitəsi ilə mədəniyyətlər meydana çıxmış, bir coğrafiyada mədəniyyətin ölməsi başqa bir coğrafiyada yeni bir mədəniyyətin meydana gəlməsinə səbəb olmuşdur. Bununla da, mədəniyyətlər arasında "səbəb-nəticə əlaqələri" yaranmışdır. Lakin insanları böyük köçlərə məcbur edən səbəblərin də tarixdə rolu azaldılmamalıdır. Böyük köçlər müxtəlif xalqların tarixində mühüm rol oynamış, müxtəlif coğrafiyalarda dövlətlərin meydana gəlməsinə səbəb olmuşdur.

Azərbaycan torpaqlarında xristian-erməni dövləti yaratmaq Rusiya dövlətinin ənənəvi siyasi məqsədi idi. I Pyoturla başlanan bu siyasət sonrakı əsrlərdə də daim davam etmişdir. İkinci Rusiya-İran müharibəsi qurtardıqdan sonra köçürmə siyasətinin hüquqi cəhətdən təmin edilməsi üçün tədbirlər görüldü. Katalikos Nerses Aştaraketsi ermənilərin köçürülməsini həyata keçirmək üçün layihə hazırladı. Rusiyanın İrandakı səfiri A. Qriboyedov və general İ.Paskeviç tərəfindən Türkmənçay müqaviləsinə daxil edilmiş XV maddə bu layihənin reallaşmasında mühüm rol oynadı. Ermənilərin köçürülməsinə rəhbərlik etmək üçün Yegizar Lazaryan 1827-ci ildə Təbrizə göndərildi. Naxçıvan və İrəvanda köçürmə komitəsi təşkil edildi. Professor Yaqub Mahmudov "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti" əsərində yazdığı kimi, həmin dövrdə Rusiyadan Azərbaycan ərazisinə xristian əhalinin köçürülüb gətirilməsinə cəhd göstərildi. İlk vaxtlar bu siyasət baş tutmadıqda isə Rusiya Cənubi Qafqazda özünə dayaq yaratmaq üçün işğal etdiyi Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq rayonlarına, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhali köçürüldü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan torpaqlarında keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində süni surətdə və xüsusi məqsədlə "Erməni vilayəti" yaradıldı. Bununla da, Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin əsası qoyuldu (Mahmudov, 2002). Rusiyaya yeni işğal edilmiş bölgələrin – Naxçıvan, İrəvan və Qarabağın müsəlman coğrafiyası olduğu bəlli idi. Rusiyanın ermənilərin köçürülməsi siyasəti daha mühüm bir siyasətin əvvəlcədən həyata keçirilməsi demək idi. Rusiya yeni yerləşmiş olduğu müsəlman Qafqazın yalnız siyasi çoğrafiyasını dəyişməyi

düşünmürdü. Onun üçün Qafqazın siyasi vəziyyətindən heç də az əhəmiyyətli olmayacaq etnik və dini vəziyyət idi (Sadıqov, 2004). Tarix elmləri doktoru Elmira Məmmədova Azərbaycan tarixi kursunda hərb məsələləri əsərində qeyd edir ki, İrəvan və Osmanlı ərazisindən köçürülən erməni əhalisi ən çox Naxçıvan, Qarabağ və İrəvan torpaqlarında yerləşdirildi. Hesablamalara görə, 1911-ci ildə Cənubi Qafqazda yaşayan 1,3 milyon erməni əhalisi həmin köçürmə nəticəsində buraya gətirilmişdi. Azərbaycanda yerləşən erməni əhalisinə bəylərə məxsus ərazilərdən çoxlu torpaq sahələri verilmişdi. Köçürmə nəticəsində Şimali Azərbaycanın qərb rayonlarında, xüsusilə Qarabağ, Naxçıvan və İrəvanda əhalinin etnik tərkibində dəyişiklik baş vermişdi (Məmmədova, 2011). Rusiya 1836-cı ildə müstəqil Alban kilsəsini ləğv etdi və onu erməni qriqorian kilsəsinin tabeliyinə verdi. Alban kilsəsinin əmlakı və tarixi irsi Eçmiədzin kilsəsinin sərəncamına verildi. Bununla da, Azərbaycanın qədim əhalisi olan xristian albanların qriqorianlaşdırılması və erməniləşdirilməsi prosesinə şərait yaradıldı.

"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanında deyilir: "Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gercəkləşdirilərək, ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının bir formasına çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi." (https://e-qanun.az/).

Heydər Əliyev Azərbaycan tarixinin mahir bilicisi idi. Onun Azərbaycan tarixinə dair hər bir fikri və tarixi şəxsiyyətlərə verdiyi qiymət bizim üçün həqiqət meyarıdır. Heydər Əliyev XIX əsrdə Azərbaycanda baş vermiş siyasi, ictimai və mədəni proseslərə tarixçi kimi qiymət vermişdir: "XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli

şəxsiyyətlərin, Abbasqulu ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur. Azərbaycanda məhz bu dövrdə demokratik mətbuat, anadilli məktəb, dünyəvi teatr yaranaraq milli şüurun formalaşmasına güclü təkan verdi." (http://www.anl.az/heliyev/he_me.htm).

Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi əsərində qeyd edir ki, Azərbaycanın ləyaqətli oğullarından biri olan professor Mirzə Kazım bəy XIX əsrdə ilk dəfə olaraq "Dərbəndnamə "adlı əsəri ilə Azərbaycan və Qafqaz tarixini incələməyə nail olmuşdur. Mirzə Kazım bəy bundan başqa "Əssəbus-seyyar" adlı əsərində Krım və Kazan tarixini, uyğur türklərinin tarixi ilə də məşğul olmuşdur. Onun kitabları əlimizdə olmadığı üçün bu əsərin elmi dəyəri barədə fikir söyləməyə çətinlik çəkirik. Mirzə Kazım bəyin bu incələmələri, türk-tatar qrammatikasını yazması və o dövrdə rus çar hökumətinə verdiyi raportda rus idarəsi altında olan bütün türklərin başa düşə biləcəkləri türk dili yaradılması fikrini təklif etməsi ilə onu ilk Azərbaycan türk vətənsevəri saysaq, elə bilirəm ki, yanılmarıq (http://lib.az/users/1/upload/files/Huseyn_Bakkara).

Vətən tarixini yazmağın əhəmiyyətini dərk edən vətənpərvərlərdən biri də Abbasqulu ağa Bakıxanov olmuşdur. A.Bakıxanov Azərbaycanın elm və mədəniyyət tarixinə hər şeydən əvvəl görkəmli maarifçi-tarixşünas kimi daxil olmuşdur. O, on beş ildən çox Azərbaycan tarixinə dair materiallar toplamış və sistemə salmışdır. A.Bakıxanovun Vətən tarixi sahəsindəki çoxillik axtarışlarının nəticəsi onun 1841-ci ildə fars dilində yazıb tamamladığı və 1843-cü ildə Qafqazın şərq hissəsinin tarixi adı ilə rus dilinə tərcümə edilən Gülüstani-İrəm əsəri oldu. A.Bakixanovun əsəri, Cənub-Şərqi Qafqazın (Şirvan və Dağıstanın) qədim zamanlardan 1813-cü ildə Rusiya ilə İran arasında bağlanmış Gülüstan sülh müqaviləsinə qədər olan dövrünün tarixi xülasəsindən ibarətdir (http://anl.az/el/Kitab/254482.pdf). Qeyd olunduğu kimi, Heydər Əliyev XX əsrin tarixi proseslərini XIX əsrin proseslərinin davamı kimi dəyərləndirmişdir. XIX əsrdə çar Rusiyasının milli, etnik və dini təqiblərinə baxmayaraq, əsrin ikinci yarısında Azərbaycanda gedən maarifçilik ideyalarının inkişafı prosesinin qarşısını almaq mümkün olmadı. Milli şüurun formalaşmasında ana dilində tədris edən məktəblərin, milli ədəbiyyatın, mətbuatın, teatrın böyük təsiri olmuşdur.

XIX əsrin ikinci yarısından Azərbaycanda kapitalist istehsal münasibətlərinin yaranması və inkişafı, iqtisadi və mədəni yüksəliş, cəmiyyətin strukturunun dəyişməsi Azərbaycan millətinin təşəkkül prosesi ilə çulğalaşmışdır. Bu baxımdan neft sənayesinin inkişafı, Azərbaycana xarici kapitalın axını diqqətə alınmalı məqamdır. Çünki, bu dövrdə

Azərbaycan neftinin dünya bazarına çıxarılması Azərbaycanda sənaye istehsalının inkişafına təkan vermişdi. Neft faktoru XIX əsrdən başlayaraq Azərbaycan xalqının həyatında həlledici rol oynamışdır. Heydər Əliyev isə XX əsrin sonunda neft strategiyasından əlverişli şəkildə istifadə etmiş və Azərbaycanı ağır ictimai-siyasi xaosdan xilas etmişdir. 20 sentyabr 1994-cü ildə "Gülüstan" sarayında öz müstəsna əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almış müqavilə bağlandı. "Əsrin müqaviləsi" tarixə Heydər Əliyevin siyasətində neft strategiyasını müəyyən etmiş ilk iri iqtisadi sənəd kimi düşmüşdür.

Heydər Əliyev Xəzər dənizinin Azərbaycan sektorunda xarici şirkətlərlə müştərək işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə keçirilən təntənəli mərasimdəki nitqində demişdir: " XIX əsrin sonunda, XX əsrin əvvəlində Azərbaycan dünyanın neft hasil edən ən böyük ölkəsi olubdur. XX əsrin əvvəlində dünyada hasil edilən neftin 50 faizindən çoxu Azərbaycanda, Bakıda çıxarılmışdır. Azərbaycan XX əsrdə neft ölkəsi kimi çox inkişaf etmişdir. Azərbaycanın neft sənayesi mənsub olduğu Sovetlər İttifaqının, xüsusən Rusiyanın ərazisində yeni neft yataqlarının kəşf olunmasında böyük xidmətlər göstərmişdir. Təsadüfi deyil ki, Rusiyanın ərazisində olan böyük neft yataqlarına sonralar "ikinci Bakı", "üçüncü Bakı", "dördüncü Bakı" adları verilmişdir." (http://www.anl.az/heliyev/he_me.htm).

**Nəticə**

Heydər Əliyev müasir dinamik inkişafımızın əsasını təşkil edən yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin təminatçısı oldu. "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir", deyən dahi Heydər Əliyev bu məqsədin reallaşması üçün lazım olan hər şey etdi və Azərbaycanı sürətlə inkişaf edən bir ölkəyə çevirdi. Azərbaycan xalqı və dövləti mövcud olduqca, Heydər Əliyev dövlətçilik irsinə də daim müraciət ediləcək, ondan istifadə olunacaqdır.

**Ədəbiyyat**

Mahmudov, Y. (2002). *Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti*. Təhsil. http://anl.az/el/Kitab/2015/my_athesh.pdf

Məmmədova, E. K. (2011). *Azərbaycan tarixi kursunda hərb məsələləri.* ADPU nəşriyyatı.

Sadıqov, H. (2004). *Azərbaycan Avropa dövlətlərinin diplomatiyasında*. Təfəkkür. http://web2.anl.az:81/el_T(s).php

http://www.anl.az/heliyev/he_me.htm

http://lib.az/users/1/upload/files/Huseyn_Bakkara_Azerbaycan_Istiklal_Mucadelesi_Tarihi.pd

http://anl.az/el/Kitab/254482.pdf

http://www.anl.az/heliyev/he_me.htm

http://www.anl.az/heliyev/he_me.htm

https://e-qanun.az/